## TƏLTİF VƏ MÜKAFATLARI



**"Azərbaycan Respublikasının əməkdar elm xadimi"** - 1999-cu ilin dekabr ayında Azərbaycan xalqının mühüm tarix və mədəniyyət abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanının tədqiqindəki xidmətlərinə görə Kamal Abdullayevə Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının əməkdar elm xadimi"adı verilmişdir.



**"Rusiya Federasiyasının Puşkin medalı"** – 2007-ci ildə təltif olunmuşdur.



**"Azərbaycanda Humay mükafatı" "**- 2007-ci ildə təltif olunmuşdur.

**525-ci qəzetin "İlin romanı" adlı mükafatı"-** 2007-ci ildə layiq görülmüşdür.

**"Monitorinq qrupunun "İlin ədəbiyyat adamı"**2007- ci ildə layiq görülmüşdür.

**"Azərbaycanla Çexiya arasında münasibətlərin inkişafında mühüm roluna görə "Karl Kramej" medalı** – 2009-cu ildə təltif olunmuşdur.

**"Böyük Xaç" kavaler ordeni -** Polşa Respublikası prezidenti Lex Kaçinski tərəfindən təqdim edilən bu ordenə 2009cu ildə layiq görülmüşdür

**Polşa Respublikasının Xarici İşlər Nazirliyinin Xüsusi Diplomu** – Polşanın müsbət simasının formalaşmasındakı mühüm xidmətlərinə görə 2009-cu ildə layiq görülmüşdür.

**Dədə Qorqud Milli Fondunun "Dədə Qorqud Milli Mükafatı" "Azərbaycan dünyası" beynəlxalq jurnalının "Vətən övladı" qızıl medalı** – 2010-cu ildə layiq görülmüşdür.

**"Son 10 ilin ədəbi əsəri" mükafatı -** III Nəsimi Milli Ədəbiyyat Müsabiqəsində "Yarımçıq əlyazma" romanına görə 2010-cu ildə layiq görülmüşdür.

**İranın Təbriz şəhərində Qafqaz Universitetləri Birliyinin (KUNİB) 5-ci konqresində "Elmi fəaliyyətə görə" mükafat** - 21 may 2015-ci ildə layiq görülmüşdür

**"Scanno" mükafatının ("Skanoprize") ədəbiyyat üzrə xüsusi prizi** -"Yarımçıq əlyazma" romanı İtaliyanın ən böyük fondlarından biri Rikardo Tanaturri Fondunun təsis etdiyi bu mükafata 21 sentyabr 2015-ci ildə layiq görülmüşdür.



**"Şöhrət" ordeni** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətinə görə -3 dekabr 2015-ci ildə layiq görülmüşdür.

**"Qızıl Delviq" mükafatı -** Rusiyanın məşhur "Xydojestvennaya literatura" nəşriyyatı tərəfindən çap edilən "Platon, deyəsən, xəstələnib…" ("Платон, кажется, заболел…") hekayələr kitabı Rusiyada ədəbiyyat üzrə təqdim olunan yüksək mükafatına 23 mart 2016-cı ildə layiq görülüb.

**Şərqi Avropada ilin ən bacarıqlı şəxslərini seçən Regional Agentlik və onun nəşr etdiyi "Euromanager" jurnalı tərəfindən "Müasir dünyanın dini, irqi və etnik ayrı-seçkilik kimi problemlərindən əziyyət çəkən Avropa regionunda multikulturalizm ənənələrinin inkişaf etdirilməsi sahəsində xidmətlərinə görə" mükafatı.** 2017-ci ildə layiq görülüb.

**"Xalq yazıçısı" -** 24 may 2019-cu -ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə"Xalq yazıçısı" fəxri adına layiq görülüb.

Kamal Abdulla "2018–2019-cu tədris ilinin ən yaxşı rektoru" sosial tələbə sorğusunda qalib olub.



**Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı** ilə təltif edilib 10 iyul 2019-cu ildə —



**Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin Sərəncamı ilə "Azərbaycan diplomatik xidmət orqanları – 100 illiyi (1919–2019)" yubiley medalı** - 19 iyul 2019-cu ildə Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin Sərəncamı ilə bu medalla təltif edilmişdir.

**"Zabit Xaçı" ali xidmət ordeni** - 13 sentyabr 2019-cu ildə Macarıstan Prezidenti Yanoş Aderin tərəfindən Macarıstan və Azərbaycanın elmi-mədəni əlaqələrinin dərinləşməsindəki roluna görə bu ordenlə təltif olunmuşdur.

**Sofiya Universitetinin ali mükafatı – "Honorary Blue Ribbon Insignia" ("Mavi Lent Fəxri Nişanı")**



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə"Şərəf" ordeni** ilə təltif edilib 30 dekabr 2020-ci ildə

**"Yaşayan Dədə Qorqud" mükafatı** 14 dekabr 2021-ci ildə Türk Ədəbiyyatı Vəqfinin təsis etdiyi mükafatı təqdim  edilmişdir.

**"Şərəf" medalı** 4 iyun 2022-ci ildə Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən bu medalla   mükafatlandırlmışdır.